ƏDLİYYƏ

881 ÇAĞRI MƏRKƏZİ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 07 (256) iyul 2025

# Ədliyyə Nazirliyi ilə Milli Aviasiya Akademiyası arasında Memorandum imzalanıb

**Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Mir Cəlal oğlu Paşayev ədliyyə naziri Fərid Əhmədovla görüşüb.**

Görüş çərçivəsində Milli Aviasiya Akademiyası (MAA) ilə Ədliyyə Nazirliyi arasında hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin bilik və bacarıqlarının artırılması istiqamətində həyata keçiriləcək birgə işlər və digər tərəfdaşlıq perspektivləri müzakirə edilib. Görüşdə MAA ilə Nazirlik arasında Əməkdaşlıq Memorandumu imzalanıb.

Memorandumda MAA-da hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin Nazirliyin struktur bölmələrində təcrübə keçmələri və könüllü fəaliyyətə cəlb olunmaları, Nazirliyin əməkdaşlarının MAA-da hüquqşünasların hazırlığı prosesində iştirak etmələri, hüquq elminin inkişafına yönəlmiş birgə təkliflərin hazırlanması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulur.





Görüşdə akademik Arif Mir Cəlal oğlu Paşayev və nazir Fərid Əhmədov tərəfindən bir qrup tələbəyə - Yunanıstanın paytaxtı Afina şəhərində keçirilən XVI Layden-Sarin Məhkəmə Müsabiqəsində ("Leiden-Sarin International Air Law Moot Court Competition") MAA-nı təmsil etmiş və yarımfinala yüksəlmiş Amal Əhmədova, İlahə Səmədovaya, Rəsul Əliyevə, həmçinin Azərbaycan Respublikasının Ali Məhkəməsi, Məhkəmə-Hüquq Şurası və Vəkillər Kollegiyasının tərəfdaşlığı ilə "Femida Könüllüləri" təşkilatı tərəfindən təşkil olunmuş "DİVAN" Milli Məhkəmə Simulyasiyasında I yerə layiq görülmüş Həmayil Sadıqovaya, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müasir vergi orqanlarının yaradılmasının 25 illiyinə həsr olunmus "Vergilər" mövzusunda ümumrespublika olimpiadasında III yerə layiq görülmüş Həlimaxatun İsmayılovaya təşəkkürnamələr təqdim edilib.

# Ədliyyə naziri Fərid Əhmədov pakistanlı həmkarı ilə görüşüb





**Azərbaycan və Pakistan arasında hüquqi sahədə əlaqələrin möhkəmləndirilməsi məqsədilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə naziri Azam Nazir Tararın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdə olub.**

Səfər çərçivəsində nümayəndə heyəti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Ardınca Şəhidlər xiyabanı, Zəfər Parkı və Zəfər abidəsi ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi anılıb.

Daha sonra ədliyyə naziri Fərid Əhmədov pakistanlı həmkarı ilə görüş keçirib. Görüş zamanı iki ölkə arasında hüquqi sahədə mövcud əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulanıb, həmçinin siyasi, iqtisadi, ticarət və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi qeyd olunub.

Tərəflər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü ilin iyul ayında Pakistana dövlət səfəri zamanı imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"-nun əhəmiyyətinə toxunublar.

Memorandumun icrası məqsədilə görüşdə beynəlxalq müqavilə olmayan "Əməkdaşlıq Proqramı" imzalanıb. Proqram çərçivəsində rəqəmsal ədliyyə, ədalət mühakiməsində süni intellektin tətbiqi, hüquq sahəsində elmi tədqiqatların aparılması, eləcə də təhsil və tədrisin təşkil edilməsi, qanunvericiliyin işlənməsi, mübahisələrin alternativ həlli sahəsində əməkdaşlıq və digər aktual istiqamətlər üzrə təlimlərin təşkili planlaşdırılır. "Əməkdaşlıq Proqramı"nın icrası məqsədilə tərəflər Fəaliyyət Planının hazırlanması barədə də razılığa gəliblər.

Görüş zamanı Azərbaycan və Pakistan arasında strateji tərəfdaşlığın yüksək qiymətləndirildiyi bildirilib, qarşılıqlı səfər və təmasların hüquqi sahədə əməkdaşlığın daha da inkişafına töhfə verdiyi vurğulanıb. Həmçinin tərəflər gələcək əməkdaşlıq perspektivlərini və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Nazir Fərid Əhmədov İraq Federal Ali Məhkəməsinin sədri ilə görüşüb



**Ədliyyə naziri Fərid Əhmədov ölkəmizdə səfərdə olan İraq Respublikası Federal Ali Məhkəməsinin sədri Munther İbrahim Hüsseynin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan və İraqın müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirdiyi, qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli əməkdaşlığın inkişafına töhfə verdiyi qeyd olunub.

Fərid Əhmədov hər iki xalqı oxşar tarix, ortaq din və digər mənəvi tellərin bağladığını vurğulayaraq bu səfərin dövlətlərimiz arasında əlaqələrin, xüsusilə hüquqi əməkdaşlığın inkişafına əlavə təkan verəcəyini bildirib. Nazir qeyd edib ki, ölkələrimiz arasında hüquqi sahədə əlaqələrin inkişafı üçün geniş imkanlar var.

Munther İbrahim Hüsseyn səmimi qəbula görə öz minnətdarlığını bildirərək qarşılıqlı səfərlərin ölkələr arasında məhkəmə və ədliyyə sahəsində əməkdaşlığın genişlənməsinə təkan verdiyini, hüquqi sahədə əldə olunan irəliləyişləri, eləcə də belə səfərlərin qarşılıqlı təcrübələrin öyrənilməsində vacibliyini qeyd edib.

Görüşdə, həmçinin tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Nazir Fərid Əhmədov Quba şəhərində vətəndaşları qəbul edib



**Ədliyyə naziri Fərid Əhmədov 18 iyul tarixində Quba şəhərində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Ədliyyə nazirinin müavini Toğrul Hüseynov Hanoyda vyetnamlı həmkarı ilə görüşüb

**Ədliyyə nazirinin müavini Toğrul Hüseynov Vyetnama səfəri çərçivəsində vyetnamlı həmkarı Nguyen Thanh Tinh ilə görüşüb.**

Görüş zamanı iki ölkə arasında iqtisadi, sənaye və digər sahələrdə dostluq və qarşılıqlı etimada əsaslanan əlaqələrin inkişafı məmnunluqla qeyd olunub, hüquqi sahədə əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər bu ilin may ayında imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Vyetnam Sosialist Respublikasının Ədliyyə Nazirliyi arasında 2025-2027-ci illər üçün Əməkdaşlıq Proqramı"nın



icrası barədə müzakirələr ediblər.

Görüşdə ən yaxşı təcrübələrin bölüşülməsi, hüquqi sahədə təlim və tədrisin təşkil edilməsi və ədliyyə sahəsində mövcud əməkdaşlıq mexanizmlərinin daha da gücləndirilməsi məqsədilə işçi qrupların yaradılması və qarşılıqlı səfərlərin təşkil edilməsi barədə fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, Toğrul Hüseynov Vyetnamın paytaxtı Hanoy şəhərində keçirilən Azərbaycan-Vyetnam iqtisadi-ticarət və elmi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 3-cü iclasında iştirak edən Azərbaycan nümayəndə heyətinin tərkibində təmsil olunur.

# Bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilir




**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**

İyulun 11-də regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidov tərəfindən Şirvan, Bərdə, Lənkəran, Gəncə, İmişli, Xaçmaz, Göyçay regional ədliyyə idarələri ilə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda penitensiar sahə ilə bağlı vətəndaş müraciətləri dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həll edilib, həmçinin vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

**Vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq videoqəbullar təşkil edilir.**

İyul ayı ərzində Nazirliyin Bələdiyyələrlə iş baş idarəsi, İnsan resursları idarəsi, İcra xidməti və Notariat, qeydiyyat və reyestr baş idarəsinin rəhbərliyi tərəfindən Şəki, Şirvan, İmişli, Xaçmaz, Göyçay, Lənkəran, Bərdə, Şəmkir və Gəncə regional ədliyyə idarələri ilə birlikdə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbullarda nazirliyin fəaliyyət istiqamətləri üzrə 52 vətəndaşın müraciəti dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həll edilib, həmçinin vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.



# Ədliyyə Nazirliyinin penitensiar müəssisələrində vərəmə qarşı mübarizə mövzusunda təlimlər keçirilib

**Ədliyyə Nazirliyinin Tibb baş idarəsi tərəfindən 2025-ci il üçün təsdiqlənmiş Təlimlər planına əsasən İxtisaslaşdırılmış Müalicə Müəssisəsinin (İMM) Vərəm üzrə təlim mərkəzində vərəmlə mübarizə, həbsxanalarda vərəmə nəzarətin təkmilləşdirilməsi və tənəffüs yolu infeksiyalarının qarşısının alınması məqsədilə bir sıra təlimlər təşkil olunub.**

Tibb baş idarəsinin təşkilatçılığı və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) dəstəyi ilə keçirilən təlimlərin əsas məqsədi penitensiar müəssisələrdə tibb və qeyri-tibb sahəsində çalışan əməkdaşların yoluxucu xəstəliklər haqqında bilik və bacarıqlarının təkmilləşdirilməsindən ibarətdir. May və iyun aylarını əhatə edən təlimlər "Şəxsi heyət arasında vərəm və kəskin respirator infeksiyaların yayılmasına qarşı profilaktik tədbirlər", "Azərbaycanın penitensiar müəssisələrində vərəmin diaqnostikası, müalicəsi və profilaktikasında orta tibb işçilərinin rolu", "Qısaldılmış müalicə rejimlərinin tətbiqi dövründə həbsxanalarda vərəmə nəzarətin təkmilləşdirilməsi. ÜST-ün Rifampisinə davamlı vərəmin müalicəsinə dair yeni yanaşmaları", "Penitensiar müəssisələrdə tənəffüs orqanlarının kəskin respirator xəstəlikləri və vərəm infeksiyasının yayılmasına qarşı həyata keçirilən infeksion nəzarət tədbirləri" mövzularını əhatə edib.

Təlimlərə Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə Alayı Tibb-sanitar hissəsinin əməkdaşları, İMM-nin tibb xidmətinin həkimləri və orta tibb işçiləri, TƏBİB və Səhiyyə Nazirliyinin əməkdaşları, penitensiar müəssisələrin nəzarətçiləri, feldşer və ftiziatr ixtisaslı əməkdaşları daxil olmaqla, 70-dən çox iştirakçı qatılıb.

Təlimçi qismində ÜST ilə Əməkdaşlıq Mərkəzinin müəllim heyəti ilə yanaşı ƏN TBİ-nin mütəxəssisləri, ÜST Avropa bürosunun eksperti, ÜST Ölkə ofisinin mütəxəssisi və Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitunun həkimi çıxış ediblər.

Silsilə təlimlər "Penitensiar müəssisələrdə İİV/Vərəm infeksiyalarının idarə olunması və bu istiqamətdə həyata keçirilən fəaliyyətlər. Zərərin azaldılması proqramının əhəmiyyəti" mövzusunda təlimlə yekunlaşıb. Sonuncu ikigünlük təlim penitensiar müəssisələrdə yoluxucu xəstəliklərin effektiv idarə olunması və tibb heyətinin peşəkarlığının artırılması məqsədilə tibb sanitar hissələrinin həkimləri üçün təşkil edilib.

# Ədliyyə orqanlarına qulluğa qəbul olan namizədlərlə icbari təlimlərə start verilib

**Ədliyyə Nazirliyinin kadr potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində ədliyyə orqanlarına qulluğa qəbulla bağlı keçirilmiş imtahanlardan uğur qazanaraq icbari təlimdə iştirak edəcək namizədlərlə Ədliyyə Akademiyasında görüş keçirilib.**

Tədbirdə iştirak edən ədliyyə nazirinin müavini, nazirliyin Müsabiqə Komissiyasının sədri Abiddin Hüseynov açılış nitqi ilə çıxış edərək ədliyyə sistemində aparılan islahatlar, tətbiq olunan yeniliklər, nazirliyin kadr korpusunun gənc mütəxəssislər hesabına gücləndirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib və təlimə cəlb edilən namizədləri təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.





Daha sonra Ədliyyə Akademiyasının rektoru Şahin Əliyev çıxış edərək icbari təlim prosesi ilə əlaqədar ətraflı məlumat verib.

Təxminən otuz beş gün davam edəcək icbari təlim zamanı namizədlər həm nəzəri biliklərə yiyələnəcəklər, həm də onlar üçün təcrübə və tanışlıq tədbirləri təşkil ediləcək. Yeni və təkmilləşdirilmiş formatda tərtib edilmiş təlim proqramı ilə namizədlər daha çox praktiki bacarıqlar əldə edərək icra, probasiya və qeydiyyat üzrə tabeli və yerli ədliyyə qurumlarının fəaliyyəti, eləcə də məhkəmələrdə icraat qaydası ilə yaxından tanış olacaqlar.

İcbari təlimin yekunları üzrə imtahandan uğurla keçən hüquqşünaslar peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə alaraq ədliyyə orqanlarına qulluğa qəbul olunacaqlar.

Qeyd edək ki, nazirliyin Müsabiqə Komissiyası tərəfindən yekunlaşdırılan 24-cü müsabiqənin söhbət mərhələsində iştirak edən 89 namizəddən 64 nəfəri uğur qazanaraq icbari təlimlərə cəlb edilib.

# Ədliyyə orqanlarına qulluğa qəbulla bağlı test imtahanı keçirilib

**İyulun 13-də Ədliyyə Nazirliyi Dövlət İmtahan Mərkəzi ilə birlikdə ədliyyə orqanlarına qulluğa qəbulla bağlı test imtahanı keçirib.**

İmtahan prosesini izləmək üçün ədliyyə nazirinin müavini, nazirliyin Müsabiqə Komissiyasının sədri Abiddin Hüseynov və Komissiyanın digər üzvləri də imtahanda iştirak ediblər.

İmtahanda iştirak edən 91 namizəddən 40 nəfəri uğur qazanaraq növbəti mərhələdə iştirak şansı qazanıb. Namizədlər test imtahanını yekunlaşdırdıqda topladıqları bal barədə məlumatla tanış olmaq imkanına malik olublar.





Qeyd edək ki, uğur qazanmış namizədlər müsabiqənin söhbət mərhələsində iştirak etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş sənədlərini 15 iş günü ərzində, saat 9:00-dan 18:00-dək Ədliyyə Nazirliyinin İnsan resursları idarəsinə (Bakı şəhəri, İnşaatçılar prospekti 1) təqdim etməlidirlər.

Namizədlərin təqdim etməli olduğu sənədlərin siyahısı ilə https://www.justice.gov.az/categories/189 linkə keçid edərək tanış olmaq mümkündür.

Təqdim etdiyi sənədlərə görə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanunla müəyyən edilmiş tələblərə cavab verən namizədlər müsabiqənin ikinci mərhələsinə buraxılacaq və onlarla fərdi qaydada söhbət aparılacaqdır. Söhbətin keçirilmə vaxtı və yeri barədə namizədlərə əvvəlcədən məlumat veriləcəkdir.

İmtahan nəticələri ilə bağlı Apellyasiya Komissiyası 15-16 iyul tarixlərində saat 14:00-dan 17:00-dək Dövlət İmtahan Mərkəzinin əsas inzibati binasında fəaliyyət göstərəcək (Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299).

# Beynəlxalq axtarışda olan daha bir şəxs Bosniya və Herseqovinada tutularaq Azərbaycana ekstradisiya edilib

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin aidiyyəti qurumları ilə beynəlxalq axtarışa verilmiş, cinayət törədilməsində ittiham olunan şəxslərin tutularaq ölkəmizə gətirilməsi istiqamətində səmərəli əməkdaşlıq tədbirləri davam etdirilir.**

İyulun 4-də İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilən daha bir nəfərin nazirlik tərəfindən Azərbaycana ekstradisiyası həyata keçirilib.

Belə ki, bir sıra şəxslərlə qabaqcadan əlbir olub quldurluq edərək (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 181.3.2-ci maddəsi) zərərçəkmiş şəxsə məxsus 120.000 manat məbləğində pul vəsaitini ələ keçirməkdə ittiham edilmiş Azərbaycan Respublikasının vətəndaşı Təhməzov Elçin Bayram oğlunun yeri Bosniya və Herseqovinada müəyyən olunaraq həbs edilib. Bu cinayət işi üzrə digər təqsirləndirilən şəxslərdən biri – Ramil Məmmədov artıq 13 iyun 2025-ci il tarixində Bosniya və Herseqovinadan ölkəmizə gətirilərək istintaq orqanına təhvil verilib.

Ədliyyə Nazirliyi tərəfindən müvafiq sorğu və tələb olunan sənədlər qarşı tərəfə təqdim olunub, habelə işçi danışıqlar aparılıb. Nəticədə həmin şəxslərin ölkəmizə ekstradisiyası ilə bağlı razılıq əldə olunub.

Elçin Təhməzov nazirliyin Beynəlxalq əməkdaşlıq baş idarəsinin və Penitensiar xidmətin məsul əməkdaşları tərəfindən Sarayevo şəhərindən ölkəmizə gətirilib və məhkəmənin həbs qərarına əsasən Penitensiar xidmətin müvafiq istintaq təcridxanasına yerləşdirilib.

# Hüquqi məsuliyyət riski daşıyan üzərlik bitkisi ilə bağlı xəbərdarlıq

**Son zamanlar bəzi ölkələrin hüquq mühafizə orqanları tərəfindən üzərlik (Peganum harmala) bitkisi ilə sərhədi keçməyə cəhd edən şəxslərin saxlanılması halları artmaqdadır. Nəticədə həmin şəxslər barəsində inzibati və ya cinayət məsuliyyəti tədbirləri görülür.**

Üzərlik bitkisi xalq təbabətində və mədəni-ritual ənənələrdə geniş istifadə olunsa da, onun tərkibindəki bəzi alkaloid maddələr – xüsusilə psixotrop təsirə malik olan harmalin, harmin və digər birləşmələr – bir sıra ölkələrdə dövriyyəsi məhdudlaşdırılan və ya tam qadağan olunmuş maddələr siyahısına daxildir.

Bununla əlaqədar olaraq, xarici ölkələrə səfər edən, eləcə də həmin ölkələrdən respublikamıza gələn vətəndaşlara üzərlik bitkisini, toxumlarını, ekstraktlarını və ya digər formalarını üzərlərində daşımamaq tövsiyə olunur. Bu, həmin ölkələrin qanunvericiliyində nəzərdə tutulan hüquqi məsuliyyət risklərindən yayınmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən üzərlik bitkisinin mənşəyi, kimyəvi tərkibi, hüquqi statusu və məsuliyyət doğuran halları ilə bağlı profilaktik tövsiyə hazırlanıb. Tövsiyənin hazırlanmasında məqsəd vətəndaşların təhlükəsizliyini təmin etmək, üzərlik bitkisi ilə xarici ölkələrə səfər edərkən, eləcə də həmin ölkələrdən respublikamıza gələrkən hüquqi məsuliyyət doğura biləcək halların qarşısını almaq üçün ictimai maarifləndirmə aparmaqdır.

Məlumatla linkə (https://justice.gov.az/documents/categories/uzerlik-ekspertiza.pdf) keçid etməklə tanış olmaq olar.

# Hakimlər üçün "Stresin idarə olunması" təlimi keçirilib

**Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının birgə təşkilatçılığı ilə iyun-iyul aylarında ölkənin müxtəlif bölgələrində fəaliyyət göstərən məhkəmələrin hakimləri üçün "Hakimlik fəaliyyətində stres faktoru və onun idarə olunması" mövzusunda silsilə təlimlər təşkil olunub.**

Təlimlər yüksək emosional və psixoloji təzyiq şəraitində çalışan hakimlərin emosional dayanıqlılığının gücləndirilməsi, stresin səbəblərinin daha dərindən anlaşılması və bu hallar qarşısında praktiki idarəetmə bacarıqlarının inkişaf etdirilməsi məqsədi daşıyıb.



Bakı, Sumqayıt, Şəki və Şirvan şəhərlərində keçirilmiş təlimlərə 30 regionu təmsil edən, müxtəlif instansiyalarda çalışan – o cümlədən apellyasiya və birinci instansiya məhkəmələrində fəaliyyət göstərən – 70-ə yaxın hakim qatılıb.

Təlimlər zamanı iştirakçılar stresin hüquqi sahədə spesifik mənbələri barədə məlumatlanıb, gündəlik praktikadan nümunələr üzərində analiz aparılıb, mindfulness (diqqət toplama) texnikaları və nəfəs məşqləri ilə tanış olub, münaqişə hallarında empatik ünsiyyət və neytral yanaşmanın tətbiqini müzakirə ediblər.

Təlim hakimlərin yumşaq bacarıqlarının inkişaf etdirilməsinə, psixoloji rifahının və peşə fəaliyyətində effektivliyin artırılmasına yönəlib və gələcəkdə davamlı şəkildə keçirilməsi nəzərdə tutulur.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

**"Gender və İnsan Hüququ" Araşdırma birliyi**

Qeydiyyat tarixi: 18.03.2000-ci il
Qeydiyyat N-si: 1276
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mirzəzadə Rəna Rza qızı olmuşdur
Dəyişiklik: 02.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Mədəni İnkişaf və Dialoq" ictimai birliyi**

Qeydiyyat tarixi: 20.11.2010-cu il
Qeydiyyat N-si: 1110-Q33-2897
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qasımov Süleyman İdris oğlu olmuşdur
Dəyişiklik: 02.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**Qafqaz Əmtəə və Xammal Birjası**

Qeydiyyat tarixi: 10.01.2017-ci il
Qeydiyyat N-si: 1117-QK7-0038
Ümumi yığıncağın və birja komitəsinin qərarları və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyeva Ülkər Kamran qızı olmuşdur
Dəyişiklik: 03.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Azərbaycan-İsrail Gənclərinin Dostluq Cəmiyyəti" ictimai birliyi**

Qeydiyyat tarixi: 12.08.2005-ci il
Qeydiyyat N-si: 1105-Q5-1844
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Osmanov Ümüd Elnur oğlu olmuşdur
Dəyişiklik: 03.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Dayanıqlı İnkişaf Uğrunda" Gənclərin ictimai birliyi**

Qeydiyyat tarixi: 29.06.2017-ci il
Qeydiyyat N-si: 1117-Q59-3497
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Muradov Fərid Cavanşir oğlu olmuşdur
Dəyişiklik: 04.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"İntellekt" Sərhədsiz Maarifçi Gənclər ictimai birliyi**

Qeydiyyat tarixi: 26.05.2006-cı il
Qeydiyyat N-si: 1106-Q11-2127
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Axundov Samir Samid oğlu olmuşdur
Dəyişiklik: 04.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Avropa Tələbələr Forumu-Bakı" ictimai birliyi**

Qeydiyyat tarixi: 10.08.2007-ci il
Qeydiyyat N-si: 1107-Q19-2432
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mədətzadə Cəsur Şəmşir oğlu olmuşdur
Dəyişiklik: 07.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Dağ Yəhudilərinin İrsi Mərkəzi" ictimai birliyi**

Qeydiyyat tarixi: 04.04.2019-cu il
Qeydiyyat N-si: 1119-Q67-3695
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Şaulov İqor Aleksandroviç olmuşdur
Dəyişiklik: 07.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Gənclərin Sosial Tərəfdaşlığı Mərkəzi" ictimai birliyi**

Qeydiyyat tarixi: 29.05.2012-ci il
Qeydiyyat N-si: 1112-Q39-3037
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı Bakı şəhəri, Xətai rayonu, Məhəmməd Hadi küçəsi, ev 64, mənzil 127, yeni qaydalarla: AZ 1123, Bakı şəhəri, Xətai rayonu, Məhəmməd Hadi küçəsi, 320, M3, m3, qanuni təmsilçisi Ağayeva Fidan Azər qızı olmuşdur
Dəyişiklik: 08.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Azərbaycan UNESCO Klubları Assosiasiyası" ictimai birliyi**

Qeydiyyat tarixi: 29.12.2022-ci il
Qeydiyyat N-si: 1122-Q81-4133
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hacıyev Cahangir Qəhrəman oğlu olmuşdur
Dəyişiklik: 08.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Özəl Tibb Müəssisələri Assosiasiyası" ictimai birliyi**

Qeydiyyat tarixi: 30.05.2023-cü il
Qeydiyyat N-si: 1123-Q82-4199
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyeva Günel Teymur qızı olmuşdur
Dəyişiklik: 08.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyası" ictimai birliyi**

Qeydiyyat tarixi: 15.02.2017-ci il
Qeydiyyat N-si: 1117-Q58-3474
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Bəşirov Elxan Hidayət oğlu olmuşdur
Dəyişiklik: 08.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Səadət" sosial inkişafa yardım ictimai birliyi**

Qeydiyyat tarixi: 25.06.2011-ci il
Qeydiyyat N-si: 1111-Q36-2968
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Seyidova Gülnarə Ələddin qızı olmuşdur
Dəyişiklik: 09.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Azıxantrop" tarixi araşdırmalar ictimai birliyi**

Qeydiyyat tarixi: 22.04.2013-cü il
Qeydiyyat N-si: 1113-Q44-3161
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Kənani Yədulla Yusif oğlu olmuşdur
Dəyişiklik: 14.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Ülfət" əlillərin sosial problemlərinə yardım ictimai birliyi**

Qeydiyyat tarixi: 27.01.2006-cı il
Qeydiyyat N-si: 1106-Q8-2002
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəşidov Azər Nəriman oğlu olmuşdur
Dəyişiklik: 15.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Yeni Yazarlar və Sənətçilər" ictimai birliyi**

Qeydiyyat tarixi: 12.02.1999-cu il
Qeydiyyat N-si: 1086
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əbilov Aydın Əhməd oğlu olmuşdur
Dəyişiklik: 17.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Neftçi İdman Klubu" ictimai birliyi**

Qeydiyyat tarixi: 29.11.2013-cü il
Qeydiyyat N-si: 1113-Q47-3231
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Zeynalov Hafiz Ziyafət oğlu olmuşdur
Dəyişiklik: 14.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Elm" gənclərin sosial-intellektual inkişafına dəstək ictimai birliyi**

Qeydiyyat tarixi: 27.08.2015-ci il
Qeydiyyat N-si: 1115-Q52-3337
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abdullayev Səbuhi Eldar oğlu olmuşdur
Dəyişiklik: 14.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Lira" gənc istedadlar ictimai birliyi**

Qeydiyyat tarixi: 22.12.1999-cu il
Qeydiyyat N-si: 1207
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı: Xaçmaz şəhəri, Möhsün Sənani küçəsi, ev 4A, 4B, 4C, 4D; yeni qaydalarla: AZ 2704, Xaçmaz rayonu, Xaçmaz şəhəri, Möhsün Sənani küçəsi, giriş 4D, M6, m5 olmuşdur
Dəyişiklik: 14.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçiləri" ictimai birliyi**

Qeydiyyat tarixi: 16.11.1994-cü il
Qeydiyyat N-si: 646
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Lokman Biter olmuşdur
Dəyişiklik: 14.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Pətək" yeni nəslin mənəvi tərbiyəsi ictimai birliyi**

Qeydiyyat tarixi: 23.04.2009-cu il
Qeydiyyat N-si: 1109-Q28-2731
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əsgərova Sevinc Əlövsət qızı olmuşdur
Dəyişiklik: 15.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Azərbaycan Üzgüçülük Federasiyası" ictimai birliyi**

Qeydiyyat tarixi: 15.03.2005-ci il
Qeydiyyat N-si: 1105-Q3-1706
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı Bakı şəhəri, Səbail rayonu, Neftçi Qurban Abbasov küçəsi, 29 olmuşdur
Dəyişiklik: 17.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**Ekologiya və Təbii Ehtiyatlar İnstitutu**

Qeydiyyat tarixi: 24.02.2023-cü il
Qeydiyyat N-si: 1123-QK13-0092
Azərbaycan Respublikasının elm və təhsil nazirinin 03.06.2025-ci il tarixli 3-29/3-1-5SSK/2025 nömrəli əmri və digər sənədlərə əsasən qanuni təmsilçisi Şərifova Mahirə Talış qızı olmuşdur
Dəyişiklik: 18.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Dan" Beynəlmiləlçi Gənclər ictimai birliyi**

Qeydiyyat tarixi: 28.09.2005-ci il
Qeydiyyat N-si: 1105-Q5-1881
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Tanrıverdiyeva Sona Elçin qızı olmuşdur
Dəyişiklik: 18.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Humayun" sosial problemlərin həllinə kömək ictimai birliyi**

Qeydiyyat tarixi: 29.12.2012-ci il
Qeydiyyat N-si: 1112-Q43-3129
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı hüquqi ünvanı Bakı şəhəri, Yasamal rayonu, Balababa Məcidov küçəsi, ev 47, mənzil 26; qanuni təmsilçisi Hüseynova Firəngiz Ələddin qızı olmuşdur
Dəyişiklik: 22.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**"Nərimanov-25" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti**

Qeydiyyat tarixi: 27.11.2020-ci il
Qeydiyyat N-si: 1120-MM7-0189
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Həmidov Tərlan Sabir oğlu olmuşdur
Dəyişiklik: 23.07.2025-ci il tarixdə qeydiyyata alınmışdır

**ELAN:**

15.04.2020-ci il tarixdə 1120-P1-0056 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Azad Demokratlar Partiyası (AzDP) ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Binəqədi rayonu, 7-ci mikrorayon, Sarvan Məlikov küçəsi 29A, mənzil 7.

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 29.01.2010-cu il tarixli Qərarı ilə 1110-Q30-2806 nömrə ilə dövlət qeydiyyatına alınmış "Gen mühəndisliyi ilə bağlı maarifləndirmə" ictimai birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, Ələddin Quliyev küçəsi 23.

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 05.11.2002-ci il tarixdə 1398 saylı qərarı ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri ictimai birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: AZ1073, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 18, 4-cü mərtəbə.

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 05.11.2002-ci il tarixdə 1397 saylı qərarı ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimləri ictimai birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: AZ1073, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 18, 4-cü mərtəbə.

***

12.08.2005-ci il tarixdə 44 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Azadlıq Partiyası ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Mətbuat prospekti, 24.

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 30.04.2025 tarixli Qərarı ilə dövlət qeydiyyatına alınmış "Nizami-18" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Nizami rayonu, R.Rüstəmov küçəsi, ev 44D mənzil 7

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 01.03.2016-cı il tarixli Qərarı ilə 1116-QK6-0023 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutu ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 30.


| | | | |
|---|---|---|---|
| **Təsisçi:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi **Buraxılışa məsul:** Rasim Həsənov | **Ünvan:** Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 537-06-40 | Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır. | Reyestr N 769 |